*Azərbaycan xalqı daim qurub-yaratmaq eşqi ilə tanınıb. Məhz bu yaradıcı dühə nəticəsində XX əsrin ortalarında mühüm uğurlar qazanılmışdı. Lakin zaman keçdikcə bəzi sahələrdə yaranan gərginliklər narahatlıq doğururdu. 1960-cı illərdə respublikanın iqtisadi ritmində çatlar hiss olunmağa başladı. İnkişafın tempi yavaşladı, dinamika əvvəlki gücünü itirdi. Sənaye müəssisələrinin səsi əvvəlki kimi gur eşidilmirdi, kənd təsərrüfatının nəfəsi isə daralırdı. Məhsuldarlıq azalır, arzuolunan nəticəni vermirdi. Azərbaycan iqtisadiyyatı, ümumi mənzərəyə baxdıqda ittifaq miqyasında geridə qalırdı. Milli gəlirin həcmi istənilən səviyyəyə çatmır, əmək məhsuldarlığında gözlənilən sıçrayış baş vermirdi. Bu durğunluq ölkə əhalisinin sosial vəziyyətinə öz təsirini göstərirdi - gündəlik həyatın çətinlikləri artırdı. Ən ağrılı məqam isə elmi-texniki tərəqqinin imkanlarından istifadə edilməməsi idi. İxtira və yeniliklər kağız üzərində qalır, istehsalat müasir ideyalardan uzaq düşürdü. Halbuki o dövrdə dünya sənayesi və kənd təsərrüfatı texnoloji sıçrayış yaşayırdı. Bu mənzərə gerçəkliyi göz önünə gətirirdi. Yaradıcı xalqın potensialı ilə reallıq arasındakı fərq artırdı və bu uçurumu yalnız düzgün idarəetmə və qətiyyətli addımlar aradan qaldıra bilərdi.*



# Dirçəlişin əsasını yaradan böyük tarixi şəxsiyyət

Dahi lider Heydər Əliyev qətiyyəti, iradəsi və uzaqgörənliyi ilə Azərbaycanın potensialını ayağa qaldırmaq üçün genişmiqyaslı islahatlar proqramına start verdi. Həyatın hər bir sahəsinə sistemli yanaşma gətirildi - iqtisadiyyat, sənaye, elm, təhsil və mədəniyyətə yeni nəfəs verildi. Azərbaycanın XX əsr tarixi Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Böyük şəxsiyyətin taleyi millətin taleyinə çevrilmişdi. Yeni Azərbaycanın təməli məhz onun əzmkarlığı və strateji baxışı ilə atılmışdı. Onun quruculuq fəaliyyəti 1969-cu ildən başlasa da, bu yol əslində daha əvvəllər - XX yüzilliyin ortalarında başlanmışdı.

1940-cı illərdə hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev qarşısına çıxarılan maneələrə baxmadan qətiyyətlə irəlilədi. O, zamanın ən məsuliyyətli və təhlükəli strukturlarından biri olan Dövlət Təhlükəsizlik Komitəsinə qədər yüksəldi. Dövlət Təhlükəsizlik Komitəsi uzun illər xalqımıza qarşı yönəlmiş siyasi təqiblərin mərkəzinə çevrilmişdi. 1920-1930-cu illərdə erməni və digər qeyri-milli ünsürlər bu qurumda möhkəmlənərək Azərbaycan xalqına qarşı qanlı repressiyalara imza atmışdılar. Hüseyn Cavidin, Mikayıl Müşfiqin və onlarla ziyalımızın məhvi bu qurumların çirkin planları əsasında hazırlanmışdı. Heydər Əliyev isə bu tarixi ədalətsizliyə son qoymaq üçün böyük cəsarət göstərdi. Sovet rejiminin ən sərt dönəmində DTK-nın milliləşdirilməsi istiqamətində addımlar atdı. İlk dəfə idi ki, milli ruhlu, qeyrətli Azərbaycan övladları təhlükəsizlik orqanlarına cəlb edilirdi. O, Dövlət Təhlükəsizlik Komitəsini xalqın düşmənlərindən təmizləməyə başladı və bu yolda ciddi risklərə sinə gərdi. Heydər Əliyevin bu addımı, əslində, repressiyalar dövründə millətin əzmini dirçəltmək idi. Xalqın övladları təhlükəsizlik sisteminə daxil olduqca, süni cinayət işi "fabriki" çökməyə başladı, milli təqiblərin qarşısı alındı. Beləliklə də yüzlərlə ziyalı vətən övladının həyatı xilas edildi. Heydər Əliyev o günlərdə Azərbaycanı gələcəyin müstəqil və güclü dövlətinə çevirmək üçün ilk qığılcımı yandırmışdı.

1960-cı illərin sonunda Azərbaycan tarixi dönüş nöqtəsinə qədəm qoydu. Heydər Əliyev doğma xalqına sonsuz bağlılığı, misilsiz dövlətçilik təfəkkürü ilə Sovet İttifaqının sərt totalitar çərçivələri içində belə millətini inkişaf yoluna çıxarmağı qarşısına məqsəd qoydu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildi. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin rəhbərlərindən biri oldu.

Məhz onun rəhbərliyi ilə Azərbaycanda köklü inkişafın təməli qoyuldu. Bu iradənin, uzaqgörənliyin və xalq sevgisinin dövrü idi. Azərbaycanın neft-qaz sənayesi məhz bu dönəmdə ikinci nəfəsini aldı. Xəzərin suları altında yatan sərvətlər o illərdə daha dərindən kəşf olundu, neft hasilatı genişləndi. Müasir texnologiyaların tətbiqi ilə dənizin dibindəki enerji xalqın rifahına çevrilməyə başladı. Heydər Əliyevin uzaqgörən təşəbbüsü ilə kimya sənayesi formalaşdı. Gəncə və Sumqayıtda zavodların, kimya komplekslərinin inşası, polietilen və digər məhsulların istehsalı Azərbaycanın iqtisadi xəritəsində yeni səhifələr açdı. Bu layihələr təkcə sənaye inkişafı deyil, həm də gələcəyə inam idi. Kənd təsərrüfatında baş verən dönüş xalqın zəhmətini dəyərləndirən dövlət siyasətinin göstəricisi oldu. Mexanikləşmə sürətləndi, kimyalaşdırma prosesləri müasirlik qazandı. Pambıq tarlalarında, üzüm bağlarında məhsuldarlıq artdı. Meliorasiya işləri genişləndi, torpağa can verən su sistemləri yenidən quruldu.

Təhsil sahəsində atılan addımlar düşünülmüş və gələcəyə hesablanmışdı. Yeni ali məktəblər açıldı, universitetlərin maddi-texniki bazası gücləndirildi, elmi-tədqiqat institutları formalaşdı. Azərbaycan Dövlət Universitetinin fakültələri genişləndirildi, Politexnik İnstitut modernləşdirildi. Həkim, mühəndis, müəllim kimi strateji peşələrin kadr bazası sistemli şəkildə hazırlanmağa başlandı. Səhiyyədə baş verən dəyişikliklər insanların sağlam gələcəyinə yönəlmişdi. Yeni xəstəxanalar tikildi, avadanlıqlar yeniləndi, həkim kadrlarının hazırlanmasına xüsusi diqqət yetirildi. Bu siyasət insan həyatını dövlətin əsas dəyərinə çevirdi. Şəhər və kəndlərdə tikinti bumu insanların gündəlik həyatını dəyişdi. Yeni mikrorayonlar inşa edildi, kommunal infrastruktur yeniləndi, mənzil tikintisi genişləndi. Əhalinin yaşayış şəraiti daha müasir və rahat müstəviyə keçdi. Sovet idarə sistemi çərçivəsində fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev Azərbaycan dilinə və mədəniyyətinə göstərdiyi qayğı ilə milli mənlik şüurunu ayaqda tutmağı bacardı. Dövlət idarəçiliyində ana dilinin istifadəsinə geniş meydan verildi. Yazıçılar, şairlər, sənət adamları üçün yaradılan şərait ədəbi-mədəni həyatın canlanmasına təkan verdi. Milli teatrlar dirçəldi, mədəni müəssisələr fəallıq qazandı, xalq sənətinin qorunmasına xüsusi önəm verildi. Tariximizin yaddaşı olan abidələr bərpa edildi, yeni muzeylər açıldı, arxeoloji tədqiqatlar geniş vüsət aldı. Azərbaycanın qədim mədəni irsi dövlət səviyyəsində dəyərləndirildi. Milli ruhun, xalqın özünəməxsusluğunun yaşadılması və gələcəyə daşınması Heydər Əliyevin rəhbərlik fəlsəfəsinin əsas sütunlarından biri oldu.

**Naqif HƏMZƏYEV,**
**Milli Məclisin deputatı.**